

**Mədəni turizm bütün turizm növlərini özündə birləşdirir, bəşəriyyətin mədəniyyəti haqqında məlumatların əldə edilməsi baxımından əhəmiyyətli olmaqla yanaşı, dərketmə cəhətdən də bir turizm növü kimi dünyada məşhurdur. XX əsrin sonunda artıq mədəni turizm kütləvi hal almağa başladı, düşünülür ki, növbəti əsrə kimi onun məşhurluğu daha geniş olacaqdır.**

# Azərbaycanda mədəni turizm imkanları

**Azərbaycan ərazisində mədəni turizmin inkişaf etdirilməsi üçün yetəri qədər perspektiv olmasına baxmayaraq onlardan istifadə imkanları və onların istiqamətləndirilməsi müəyyən aspektlərdə aşağı səviyyədədir. Yalnız onu demək kifayət edərdi ki, ölkə ərazisindəki 6 mindən artıq tarixi memarlıq abidələrinin əksəriyyəti Böyük İpək yolunun Azərbaycandan keçən qolu boyunca yerləşir və indinin özündə də heyrət doğurur.**

Ölkəmizin tarixi memarlıq nümunələri sırasında Tağlar mağarası, Azıx mağarası xüsusi rola malikdir ki, bu da Qarabağ ərazisinin işğalı nəticəsində zəbt edilmiş və həmin regionlar hazırda turizmdən kənarda qalmışdır. İşğal nəticəsində 600 - dən artıq abidəmiz erməni işğalçılarının əlinə keçmişdir.

Bunlardan 464 - ü tarixi abidə, 100 - dən artığı isə arxeoloji abidələr siyahısında yer alır. Bunların arasında Əsgəran qalası, Şuşa qalası, Azıx mağarası, Tağlar mağarası və digərlərinin adını çəkmək mümkündür.

Bakının mərkəzi hissəsində yerləşən İçərişəhər, Şirvanşahlar sarayı (XV əsr), Qız qalası (XII əsr) kimi memarlıq nümunələrində təmir bərpa işlərinin aparılmasına baxmayaraq Bakı ətrafı abidələrin vəziyyəti hazırda qənaətbəxş hesab olunmur.

Xüsusən də Mərdəkanda yerləşən Dördkünc (XII əsr), Dairəvi (XIII əsr) qalalar, Nardaran (XIV əsr), Ramana (XVI əsr) bu baxımdan özünün nöqsanları ilə seçilir.

Çünki adı çəkilən abidələr ətrafında işıqlandırma sisteminin olmaması, ərazinin abidə kimi qorunması haqqında lövhələrdən istifadə edilməməsi, eyni zamanda gələn qonaqların qarşılanması və onlara bu tarixi yer haqqında məlumatı verə biləcək nümunəvi bələdçilərin işləməməsi təəssüf doğuran problemlər sırasında yer alır.

Regionlarda da bir sıra təmir-bərpa işləri aparılmışdır, hansı ki, Şəki Xan sarayı (1762 - ci il), Sumuq qala (XVII - XVIII əsr) bu kimi abidələr sırasında ilkin yer tutur. Lakin Qusar rayonu ərazisində yerləşən Şeyx Cüneyd məqbərəsi (1544 - cü il) orijinal vəziyyəti ilə seçilsə də turistlərin qəbul olunması baxımından çatışmazlıqları vardır. Xüsusən də bələdçi və qoruqçularla təmin olunması məqsədyönlü olardı.

Azərbaycan ənənələri sırasında gələn turistlərin diqqətini cəlb edəcək əsas faktorlardan biri də insanlarımızın tarix boyunca yaşayış səviyyəsinin forması və onların təkamül prosesidir. Azərbaycanda çoxsaylı xalq sənətkarlıq növləri inkişaf etmişdir ki, bunların arasında da dəmirçilik, misgərlik, dulusçuluq, xalçaçılıq və digər müxtəlif nümunələrin adını çəkmək olar.

Turizm baxımından Şəki şəhəri əhəmiyyətli mövqeyə malikdir, çünki burada bir sıra xalq sənətkarlıq növləri indiyə kimi qorunub saxlanılmışdır və gələn turistlərə də təqdim etmək mümkündür. Ərazidəki kəlağayı hazırlanma prosesi hamı üçün maraqlı faktlardan biridir, xüsusən bu Şəkiyə malik olan ornament və bəzək nümunələri ilə hazırlandığı zaman daha böyük marağa səbəb ola bilər.

Misgərliyin və dəmirçiliyin inkişafını isə birbaşa olaraq Lahıc, Basqal kimi yerlərdə görmək mümkündür. Lakin bu yalnız həmin regionlarda deyil, Azərbaycanın bütün istiqamətlərində vardır, sadəcə onları göz önünə gətirmək və satışlarını təmin etmək lazımdır.

Azərbaycanda basma, döymə, qarasavad, minaçılıq, xatəmkarlıq da yüksək səviyyədə inkişaf etmişdir və zərgərliyin əvəzolunmaz üslublarından sayılır. Bütün bunları nəzərə alsaq xalqımızın etnoqrafiyası olduqca zəngindir və suvenir istehsalı mümkündür. Yalnız qonşu ölkə olan Türkiyəni göstərmək olar ki, orada il ərzində yalnız suvenir satışından 3,5 - 4 mln ABŞ dolları dəyərində gəlir əldə edilir.

Azərbaycan xalçaları - Şərq xalçaçılıq sənətinin bir qoludur. Dünya muzeylərində çox zaman Qafqaz, İran, bəzən hətta erməni xalçaları adı ilə nümayiş etdirilir. Bizim xalçalar Nyu-Yorkun "Metropoliten", Londonun "Viktoriya və Albert", Parisin "Luvr", İstanbulun "Topqapı", Romanın, Berlinin, Tehranın, Qahirənin, Moskvanın və Vyananın məşhur muzeylərində nümayiş etdirilir. Təəssüflə qeyd etmək lazımdır ki, bir çox halda bəzi muzeylərdə bu sənət nümunələri mənsub olduğu xalqın adı ilə deyil, "İran xalçası", "Qafqaz xalçası" və digər adlarla təqdim olunur.

Digər qonşu ölkələrə diqqət yetirsək onlarda xalçaçılığın yüksək səviyyədə dünya ölkələrinə yayıldığını görərik, yalnız bizdə hələ qədim zamanlardan bu mədəniyyət sahəsi inkişaf etdirilsə də dünya səviyyəsində tanıtma malik olmamışdır. Bununla əlaqədar olaraq qonşu Türkiyəyə diqqət yetirərək onların bu problemin həlli yollarından yararlanmaq olardı. Eyni zamanda müxtəlif sərgilərdə iştirak etmək lazımdır, xüsusən dünyada keçirilən xalça müsabiqələrində yer almaq olar.

Azərbaycanın bütün dünya ölkələrində olduğu kimi, özünəməxsus olan çoxsaylı adət-ənənələri və bayramları vardır, hansı ki, bunların bir çoxu dini etiqadlarla bağlı olsa da, bəzilərinin inkişafı lap qədim dövrlərə gedib çatır.

Mədəniyyətimizin inkişafına təsir göstərən amillərdən biri kimi İslam dinini və onun özü ilə birlikdə gətirdiyi müqəddəs bayramları unutmaq mümkün deyil. Azərbaycanın adət-ənənələrini daha güclü əks etdirən və eyni zamanda gələn turistlər üçün daha maraqlı ola biləcək bayram, əlbəttə ki, Novruzdur.

Son illərdə Novruzun daha geniş yayılmasına və inkişafına dəstək verilir, bütün regionlarda dövlət səviyyəsində qeyd olunur, bayramın özü isə sanki festival üslubunda keçirilir. Elmi araşdırmalar Novruz bayramının yaranışını çox əski çağlarla - Zərdüştün yaşadığı dövrlə bağlayır, onun yaşını ən azı 3700, ən çoxu 5000 ilə bərabər edirlər. Bildirmək lazımdır ki, 2010 - cu ildən etibarən Novruz bayramı BMT kimi beynəlxalq təşkilat tərəfindən dünya bayramları sırasına qatılmış və qəbul edilmişdir.

21 mart tarixində yalnız Azərbaycan bayramı deyil, bütünlükdə beynəlxalq aləmdə tanınan yaz bayramı adı ilə şənliklər təşkil olunur. Novruzun xarici ölkələrdə yayılmasına ehtiyac duyulur, xüsusən Novruz və onun adətləri ilə bağlı müxtəlif büraşurların və bukletlərin çıxarılır. Novruz bayramının keçirilməsi bölgələr üzrə etnoqrafik turizmin inkişafına zəmin yaradır, nəticədə Lahıc, Basqal, Ordubad və Şəki kimi turizm mərkəzləri xüsusilə seçilir.

Milli nümunələr sırasında xaricə gedən turistlər daima həmin ölkənin xörəkləri və milli kulinariyası ilə maraqlanırlar. Hər bir turist getdiyi ölkənin qidalanmasına və onların mətbəx nümunələrinə üstünlük verir. Azərbaycanın milli xörək nümunələrinin adını araşdırsaq 2000 - dən artıq ada rast gəlmək olar. Şəki şəhərindən tapılmış samovarın tam 3,5 min il bundan əvvələ aid olduğu bildirilir və bu tapıntını dünya ölkələri ilə müqayisə etsək Çin, Rusiya və Misirdən də əvvəldə gəlir.

Gəzinti zamanı turistlərə qidalanma zamanı daima yerli xörəkləri təklif etmək, bu yolla kulinariyamızı da tanıtmaq lazımdır. Məhz bu səbəbdən mehmanxanalarda xarici ölkələrin xörəklərinə deyil, milli mətbəxə də kifayət qədər yer verilməlidir. Azərbaycan mətbəxinə xas olan nümunələr sırasında kababın şişdə hazırlanması, yuxanın sacda asılması, hətta çörəklərin təndirdə yapılması üslubu özünü daha qabarıq şəkildə ifadə edir. Həmçinin Şəki halvası, piti, ləvəngi, tərəkəmə, kabab kimi milli nümunələrimiz ölkəni dünyada mətbəx baxımından tanıtmağa kifayət edir. Hətta paxlava, şəkərbura, qoğal və digər maraqlı şirniyyatlarımız da gələn qonaqlarda maraq doğurur.

Azərbaycan musiqisi dedikdə, əlbəttə, xalqa aid

olan muğamlar ilk öncə göz önünə gəlir və insanlar dəyərləndirməni birbaşa olaraq buradan aparır. Muğamın ifa olunması zamanı istifadə edilən bir sıra musiqi alətləri Azərbaycanın mədəni tarixini və onun gözəl incilərdən ibarət olmasını sübut edir. 2003-cü ildə YUNESCO Azərbaycan muğamını "bəşəriyyətin şifahi və mənəvi irsinin şedevrləri" siyahısına daxil etdi və bununla da muğamın bədii təkrarolunmazlığını və dünya mədəniyyəti üçün dəyərini təsdiq etdi.

Şərqdə ilk opera yazan Üzeyir Hacıbəyov və ilk bəstəkar qadın olan Şəfiqə Axundovanın da adlarının bu hissələrdə qeyd olunması artıq birbaşa olaraq amillərlə göstərilmiş nümunələrdir ki, bunları danmaq və inkar etmək qeyri-mümkündür.

Üstəlik çap olunan vəsaitlərdə və CD, DVD xarakterli musiqi disklərində sazın, aşıq sənətinin yaranması haqqında da kifayət qədər məlumat verilsin. Musiqi mədəniyyətində hələ qədim zamanlardan Dədə Qorqudun qopuzu mühüm amil kimi qiymətləndirilirdi, hazırkı müasir zamanımızda isə aşıq sənəti bu baxımdan əhəmiyyətli mövqeyə sahibdir.

Bununla əlaqədar olaraq Azərbaycanda Aşıqlar birliyi də təsis edilmişdir və qonşu ölkələrimizin də bir neçəsində aşıq sənəti baxımından əlaqələr yaradılır. Azərbaycanda 1967-ci ildən Dövlət Musiqi Mədəniyyəti Muzeyi fəaliyyətə başlamışdır, lakin hazırkı vəziyyəti qənaətbəxş hesab olunmur. Həmin muzeydə mövcud olan problemlərin sıralanmasına ehtiyac vardır.

Əlbəttə, muzey özü Bakı şəhərinin tam mərkəzi küçələrindən birində yerləşir, turistlərin ən çox paytaxt şəhərlərə gəldiyini nəzərə alsaq, kompleks yerləşən abidələr sıxlığının məhz bu istiqamətlərdə olduğunu bildirərək, onun potensial imkanının olduğunu göstərmək mümkündür.

Azərbaycanda cəmi 146 muzeyin fəaliyyəti qeyd edilmişdir. Onların müəyyən hissəsində təmir-bərpa işləri aparılsa da, regionlarda mövcud olan muzeylərin əsaslı təmirə ehtiyacı vardır. Bu istiqamətdə xüsusən Lahıc rayonunda yerləşən Diyarşünaslıq muzeyini qeyd etmək lazımdır. Azərbaycan ərazisində mədəni turizmin inkişaf etdirilməsi üçün maarifləndirmə işlərinin aparılmasına, tarixi abidələrin reyestr cədvəlinin hazırlanmasına, daima turizm ixtisaslı kadrlardan istifadəyə, muzeylərin dünya standartlarına cavab verməsinə ehtiyac vardır.

**Eyni zamanda turizmin əsaslı şəkildə inkişafı baxımından xidmət və qiymət meyarlarının düzgün qoyulması, təbliğat və çap məhsullarının sürətlə yayımı və hazırlanması, hədəf bazarların seçilməsi və onlara uyğun strategiyaların qurulması səmərəli üsullar sırasındadır. Ümumilikdə Azərbaycanın özünəməxsus olan mədəniyyətinin vəhdət şəkildə gələn turistlərə təqdim edilməsi mühüm meyarlardan biridir.**

**Elnarə ALLAQİYEVA,**
*ADMİU-nun Tətbiqi kulturologiya kafedrasının magistri*

## Ədəbiyyat

1. Aşurbəyli Sara. Bakı şəhərinin tarixi. B. "Avrasiya Press" - 2006.
2. Bilalov B.Ə. Turizmin tarixi. (Dərs vəsaiti). B. "Mütərcim" - 2008.
3. Hüseynov İlqar və Əfəndiyeva Nigar. Turizmin əsasları. B. "Mars - Print" - 2007.
4. Dərgahov V.S. Rekreasiya - turizm ehtiyatları. B. - 2008.
5. Əfəndi Rasim. Azərbaycan İncəsənəti. B. "Şərq - Qərb" - 2007.
6. Əmirxanlı Sabir və Hüseynov İlqar. Dünya muzeyləri və tarixi mədəni abidələri. B. "Mars-Print" - 2008.
7. Биржаков и Никифиров. Большой глосарий терминов международного туризма. М. - 2006.
8. Holloway J. Christopher. The business of tourism. Ft Prentice Hall - eighth edition. 2009.

## Summary

The historical-architectural instances, culture, ethnograpgy and art of Azerbaijan was investigated in this article. Potential capacity and contemporary situation of cultural tourism in Azerbaijan was analysed. The estimation and analyse of current problems of cultural heritage instances of the Republic was made from tourism point of view, and certain proposals were put forward. At the same time the development perspectives of Azerbaijan cultural tourism were mentioned.